Azərbaycan Tibb Universiteti
UŞAQ CƏRRAHLIĞI fənni üzrə
___Müalicə profilaktika fakultəsi V kurs
Qr. _________Semestr____________

**«TƏSDİQ EDİRƏM»**
Uşaq cərrahlığı kafedrasının müdiri
Tibb e.d., prof. POLUXOV R.Ş.
İmza____________________

**İŞÇİ TƏDRİS PROQRAMI**
**(SİLLABUS)**

"____"___________ __ 202__ -ci il.

| | |
|---|---|
| FƏNNİN KODU: | İPF-B41 |
| FƏNNİN NÖVÜ: | məcburi |
| FƏNNİN TƏDRİS SEMESTRİ: | X |
| FƏNNİN TƏDRİS YÜKÜ: | 45 saat |
| FƏNNİN TƏDRİS FORMASI: | əyani |
| FƏNNİN TƏDRİS DİLİ: | Azərbaycan dili, rus dili, ingilis dili |

FƏNNİ TƏDRİS EDƏN MÜƏLLİM: __________________________
E-MAİL:

*PREREKVİZİTLƏR:*

Fənnin tədrisi üçün öncədən anatomiya, fiziologiya, patologiya, farmakologiya, şüa diaqnostikası, uşaq xəstəliklərinin propedevtikası, ümumi cərrahiyyə fənlərinin tədrisi zəruridir.

*KOREKVİZİTLƏR:*

Bu fənnin tədrisi ilə eyni vaxtda uşaq xəstəlikləri, cərrahi xəstəliklər fənlərinin tədris olunması zərurətidir.

*KURSUN TƏSVİRİ:*

Müalicə profilaktika fakültəsinin V kursunun uşaq cərrahlığı 35 saat təcrübi məşğələ və 10 saat mühazirə olmaqla tədris edilir. Bu semestrdə tələbələr cərrahi xəstəliklər zamanı meydana çıxan əsas əlamətlərin sindromoloji təhlilini, müxtəlif sistemlərin inkişaf qüsurları və cərrahi xəstəliklərinin semiotika, diaqnostika və müalicə taktikasını öyrənir.

Ayrı-ayrı sistem və orqanların patologiyalarının – yumşaq toxuma və sümüyün irinli-iltihabi xəstəliklərinin, döş qəfəsi, qarın boşluğu, sidikçıxarıcı sistem, dayaq-hərəkət sisteminin xəstəliklərinin kliniki əlamətləri, diaqnostikası və müalicəsi tələbələrə ətraflı öyrədilməlidir.

*KURSUN MƏQSƏDİ:*

Uşaq cərrahlığı fənnini müalicə profilaktika fakültəsi V kurs tədrisində məqsəd tələbələrə uşaqlarda ən çox rast gəlinən cərrahi xəstəliklər və inkişaf qüsurlarının semiotikasını, diaqnostikasını və müalicə üsullarını öyrətməkdən ibarətdir.

*KURSUN NƏTİCƏLƏRİ:*

Kursun sonunda tələbələr Uşaq cərrahlığının xüsusiyyətlərini, Uşaq orqanizminin anatomo-fizioloji xüsusiyyətlərini, Uşaqlarda ən çox rast gələn cərrahi xəstəlikləri, İnkişaf qüsurlarının rast gəlmə tezliyini, Uşaq yaşlarında travmanın xüsusiyyətlərini, Erkən yaşlı uşaqlarda irinli cərrahi infeksiyaların xüsusiyyətlərini, Onkologiyanın xüsusiyyətlərini, Uşaq cərrahiyyəsində müayinə üsullarının ardıcıllığını, Uşaqlarda cərrahi əməliyyatların xüsusiyyətlərini bilməlidirlər.

*FƏNNİN MÖVZULARI:*

V kurs müalicə profilaktika fakultəsi tələbələri üçün
Uşaq cərrahlığından praktiki məşğələlərin mövzusu.

1. Uşaqlarda üzün və boynun anadangəlmə inkişaf qüsurları.
2. Uşaqlarda döş qəfəsi və döş boşluğu orqanlarının anadangəlmə inkişaf qüsurları.
3. Uşaqlarda destruktiv pnevmoniyalar, bronxoektaziya xəstəliyi.
4. Yemək borusunun anadangəlmə inkişaf qüsurları və cərrahi xəstəlikləri. Diafraqmal dəbəliklər.
5. Uşaqlarda qarnın ön-yan divarının inkişaf qüsurları.
6. Sarı cisim axarı və uraxusun anadangəlmə inkişaf qüsurları. Pilorostenoz.
7. Uşaqlarda hepatobiliar sistemin anadangəlmə və qazanılma patologiyaları. Öd yollarının inkişaf qüsurları. Portal hipertenziya.
8. Uşaqlarda anadangəlmə bağırsaq keçməzlikləri.
9. Uşaqlarda qazanılma bağırsaq keçməzlikləri.
10. Uşaqlarda kəskin appendisitin yaş xüsusiyətləri. Peritonitlər.
11. Uşaqlarda yoğun bağırsağın inkişaf qüsurları və cərrahi xəstəlikləri. Hirşprunq xəstəliyi.
12. Uşaqlarda anorektal nahiyənin anadangəlmə inkişaf qüsurları və cərrahi xəstəlikləri.
13. Uşaqlarda sidik cinsiyyət yollarının inkişaf qüsurları və cərrahi xəstəlikləri. Hipospadiya, epispadiya, kriptorxizm, varikosele.
14. Uşaqlarda irinli cərrahi infeksiyalar. Yumşaq toxumaların irinli cərrahi infeksiyaları. Omfalit, yenidoğulmuşların fleqmonası. Osteomielitlər.
15. Xora və qeyri-xora mənşəli mədə-bağırsaq qanaxmaları.
16. Uşaqlarda travmatik zədələnmələrin xüsusiyyətləri. Uşaqlarda müştərək travmaların (qarın boşluğu, döş qəfəsi üzvləri və kəllə-beyin travmaları) xüsusiyyətləri. Sınıqlar, çıxıqlar, doğuş travmaları.
17. Uşaq orqanizminin anesteziologi-reanimatoloji baxımdan anotomo-fizioloji xüsusiyyətləri.
18. Uşaq anesteziologiyasının xüsusiyyətləri.

*FƏNNİN MÜHAZİRƏ MƏTNLƏRİ:*

Fənnin bütün mövzuları üzrə mühazirə mətnləri və nümunəvi testləri elektron formada hazırlanır və Universitetin «Virtual Universitet»ində yerləşdiriləcək.

1. Uşaqlarda anadangəlmə inkişaf qüsurları. Xarici görünüş anomaliyaları.
2. Uşaqlarda köks boşluğu orqanlarının və diafraqmanın anadangəlmə inkişaf qüsurları.
3. Uşaqlarda həzm traktının anadangəlmə inkişaf qüsurları.
4. Uşaqlarda qarın boşluğu üzvlərinin kəskin cərrahi xəstəlikləri. Qarında ağrı sindromu.
5. Uşaqlarda anesteziologiya və intensiv terapiyanın xüsusiyyətləri.

*QİYMƏTLƏNDİRMƏ:*

Fənn üzrə qiymətləndirmə 10 ballıq sistemlə aparılacaq.

*SƏRBƏST İŞ:*

Semestr ərzində hər tələbə 5 sərbəst iş və 1 xəstəlik tarixi yazacaq.

Sərbəst işlərin və xəstəlik tarixlərinin nəticələri jurnalda yazılır.

*SƏRBƏST İŞİN MÖVZULARI:*

1. Uşaqlarda sarı cisim axacağının inkişaf qüsurları və onların törətdiyi fəsadlar. Diaqnostika və müalicə.
2. Anorektal malformasiyaların klinika, diaqnostika və müalicəsinə müasir yanaşma.
3. Həzm traktının ikiləşmələrinin formaları klinika, diaqnostika və müalicə üsulları.
4. Ağciyərlərin bakterial destruksiyası klinika, diaqnostika və müalicə üsulları.
5. Antenatal hidronefroz və yanaşma üsulları.

SİLLABUS- İŞÇİ TƏDRİS PROQRAMI.

I mərhələ tibb təhsilinin məzmunu tədris prosesinin planlaşdırılmasını, onun həyata keçirilməsinin forma və metodlarını, tədris yükünün həcmini, tədris mərhələlərinin (semestrlərin) müddətini, tədris növlərini (mühazirə, məşğələ, laboratoriya və s.) ayrı-ayrı fənlərin həcmini, ixtisaslar üzrə təhsil proqramlarına qoyulan tələbləri əhatə edir.

Tədris prosesinin planlaşdırılması və təşkili tədris planları (nümunəvi işçi və fərdi) və fənlər üzrə işçi proqramları əsasında həyata keçirilir. Həmin sənədlərin forması və strukturu ali təhsil müəssisəsi tərəfindən müəyyənləşdirilir.

Fənn proqramları ixtisaslar üzrə ali təhsil proqramlarının tələblərinə uyğun olaraq ali təhsil müəssisələri tərəfindən hazırlanır və müvafiq qaydada Azərbaycan Respublikasının Thəsil nazirliyi tərəfindən təsdiq edilir. Fənn proqramları əsasında işçi proqramlar (sillabuslar) hazırlanır və ali təhsil müəssisələri tərəfindən təscdiq edilir.

İşçi tədris proqrammı (sillabus) – fənnin müvafiq proqrammı əsasında hazırlanan və özündə tədris olunan fənnin təsvirini, onun hədəf və məqsədini, qısa məzmununu, dərslərin müddətini və növlərini, tələbənin müstəqil işi üçün tapşırıqları, onları yerinə yetirilməsi müddətini, məsləhət saatlarını, müəllim haqqında məlumatı, müəllimin tələblərini, qiymətləndirmə meyarlarını, aralıq qiymətləndirmə cədvəlini, istifadə olunan ədəbiyyatın siyahısını özündə əks etdirən sənəddir.

*ƏDƏBİYYAT VƏ MATERİALLAR:*

**ƏDƏBİYYAT – REFERENCES.**


1. Quliyev Ç.B. Uşaq cərrahlığı. Dərslik.Bakı «Təbib nəşriyyatı» 2008.
2. Ю.Ф.Исаков. Хирургические болезни детского возраста. В двух томах. Учебник для мед.вузов. Москва. Издательский дом «ГЭОТАР-МЕД», 2004 .

3.Детская хирургия. Национальное руководство. Под.ред. акад.РАМН Ю.Ф.Исакова, проф. А.Ф.Дронова. Москва. «ГЭОТАР-МЕДИА» 2009,1168 с.

4. Атлас оперативной хирургии. Под.ред. П.Пури, М.Гольварта. Москва. «МЕД пресс-информ».2009.
5. Хирургические болезни детского возраста. Под.ред. А.И.Ленюшкина. Москва 2006, 284 с.
6. А.Ю. Разумовский, А.Ф. Дронов, А.Н. Смирнов. Эндоскопическая хирургия в педиатрии. Москва. «ГЭОТАР-МЕДИА» 2016, 609с
7. Operative Pediatric surgery. Seventh Edithion. Lewis Spitz and Arnold G Coranthr© 2013 by Taylor & Francis Group, LLC
8. Ashcraft's Pediatric Surgery.Sixth Edition. 2014 Elsevier. George W. Holcomb III, Patrick J.Murphy, Daniel J. Ostlie
9. A.C. Başaklar Çocuk cerrahisi və Çocuk urolojisi 2006.


*TƏCRÜBƏ:*

Bu fənn üzrə istehsalat təcrübəsi nəzərdə tutulmur.

Tədrisin gedişində tələbələr xəstələr üzərində işləyərək təcrübi bilik əldə etməli və bunun əsasında xəstəlik tarixi yazmalıdırlar.